# GÖYƏRÇİN

İSSN-0207-4710
10
2022



RAFİQ YUSİFOĞLU

## DƏNİZ AYRI ALƏMDİ

Dəniz ayrı aləmdi,
Hamı sirrini bilməz.
Üzməyi bacarmayan
Dayaz, dərini bilməz.

Havayı vaxt itirir
O künc, bu küncü gəzən…
Dərinə enməlidi
Mirvari, inci gəzən…



## KÜLƏK QOYMAYIB YATAQ

Kim onu hirsləndirib,
Bu dəli küləyə bax.
Çırpılır üzümüzə
Havadakı toz-torpaq.
Ağacların üstündə
Tir-tir əsir hər budaq.
Sanki çələyə düşən

Quşdu çırpınan yarpaq…
Dənizin qucağında
Hər dalğa olub bir dağ.
Yayın qızmar çağında
Buza dönübdür yataq.
Külək nə özü yatıb,
Nə qoyub bizi yataq…

## DƏNİZ ATI

Möcüzəli aləmdi
Mavi dənizin altı.
Sularında yaşayır
Balıqlar, dəniz atı…

-Dilini dinc tutanın
Başı salamat olar.
Balığı başa düşdüm,
Heç dənizdə at olar?

-Olar, niyə olmur ki,
Sirlə doludur dünya.
Kimsə bilməz yaşını,
Qədim, uludur dünya.

Tanrı dənizləri də
Canlılarla bəzəyir.
Dəniz atı balıqdır,
Ancaq ata bənzəyir.

Çapır belədən-belə,
O, üzəndə,ləngimir…
Özünü qorumaqçın
Dəyişir öz rəngini.

Dərində yox, dayazda
Arın-arxayın üzür.
Cücü-mücü görəndə
Sevinir, gülür üzü…

Üzməyi də fərqlidi,
Sanki köhləndir, çapır.
Yosunlar arasında
Özünə qida tapır…







## GÜZGÜ - AYNA

Durub güzgü önündə
O, gedəndə xəyala,
Yenə nəvə babanı
Tutdu sorğu suala.

-Aynaya baxanda da
Eynəyin düşmür gözdən.
De görüm, güzgü sözü
Yaranıb hansı sözdən?

Baba dedi nəvəyə:
-Bir azca düşün özün.
Boş yerə yaranmayıb,
Mənası var hər sözün.

Sanki şüşə üstündə
Sahibini "göz güdür".
Güzgü sözü əslində
Güzgü deyil, "gözgü"dür…

-Bəs onda niyə ona
Həm də deyirlər ayna?
-İndi izah edərəm,
Bir az səbr elə, Ayna.

Güzgüyə bənzər gölə
Əksi düşür göyün də…
"Eyn" ərəb sözüdür,
"Göz" deməkdir "eyn" də.

O sözlərdən yaranıb
Gözlük, eynək sözü də…
Öz əksini görmürsən
Sən babanın gözündə?

Qız çox maraqla baxdı
Babasının gözünə.
Onun bəbəklərində
Rast gələndə özünə,

Sevindi, öz əksinə
O, baxmaqdan doymadı.
-Baba, sənin gözün də
Elə güzgü, aynadı…

## QARA, AĞ

Hava tutulan kimi
Nəvəm göylərə baxdı:
-Bulud qaradır, niyə
Yağdırdığı qar ağdı?

